Ədalət.- 2017.- 17 mart.- S. 3.

# Bir ömür dastanı

Geniş və dərin analitik təfəkkürə malik olan professor, AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi Nizami Cəfərovun Azərbaycan dilçiliyi, türkologiya, ədəbiyyatşünaslıq və ədəbi tənqidlə bağlı sanballı, eyni zamanda fundamental tədqiqatları, monoqrafiyaları, ictimai həyatımızdakı fəal obyektiv vətəndaş mövqeyi onu hərtərəfli zəka sahibi, elm adamı kimi təkcə ölkəmizdə deyil, onun hüdudlarından çox-çox kənarlarda da tanıtmış və məşhurlaşdırmışdır. Bu yaxınlarda "Azərbaycan" jurnalında (№5-7, 2016-cı il) "Xatirələr, duyğular" başlığı altında dərc olunmuş "Keçən günlərin "tərcümeyi-hal"ı" əsəri isə Nizami Cəfərovun istedad və qabiliyyətinin daha bir çalarını üzə çıxarmış oldu.

Əsər bu sözlərlə başlayır: "Yavaş-yavaş ahıllaşıram və özümdən asılı olmayaraq, keçən günlər barəsində daha tez-tez düşünməyə başlayıram. Yaxşı ki, indiyə qədər həyatda rastlaşdığım insanlar, hadisələr hələ, demək olar ki, bütün dəqiqliyi, təfərrüatı ilə yadımdadır. Arabir haqlarında yazmışam da...

Yazdıqlarıma baxdım, yaddaşımı qurdaladım. Və belə bir kitab ərsəyə gətirdim. Bəlkə, kiməsə lazım oldu..."

Bundan sonra müəllif uşaqlığı, yaxın qohumları, məktəb illəri haqqında qısa məlumatlar verir. Xəsisliklə təsvir olunan bu səhnələrdə qəhrəmanın bütöv xarakter və obrazının yaranmasının ilk cizgiləri ilə tanış oluruq. Səhifələr bir-birini əvəz etdikcə N.Cəfərovun ali məktəb illəri, aspirantlığı, müxtəlif sahələrdə fəaliyyəti, həyat yollarında rastlaşdığı bir-birindən fərqli xarakterə malik insanlarla münasibətləri... gözlərimiz önündə canlanır. Beləliklə, müəllifin fərdi şəxsiyyətinin məhz necə, hansı mühitdə formalaşdığı bizə bütün təfərrüatları ilə aydın olur.

Xatirələrdə bir alimin, ziyalı insanın mənalı və şərəfli, hamıya örnək ola biləcək ömür yolu, bu ömür yolunun ayrı-ayrı mərhələləri canlı, şirin bir təhkiyə ilə, bədii şəkildə oxucuya çatdırılır, elmi və bədii fəaliyyəti ilə tanış olduğumuz bir çox şəxsiyyətlərin bizə görünməyən tərəflərinin ustalıqla təsviri vasitəsilə maraqlı və rəngarəng obrazlar qalereyası yaradılır. Hadisələrin, təsvirlərin birindən digərinə elə ustalıqla, məharətlə keçid edilir ki, sətirlər səni öz ağuşuna alıb aparır, bir anlıq özünü də bu hadisələrin iştirakçısı hesab edirsən.

Azərbaycan elminin böyük şəxsiyyətləri olan Mir Cəlal, Abbas Zamanov, Rüstəm Əliyev, Azad Mirzəcanzadə, eləcə də istedadlı qələm sahibləri İsmayıl Şıxlı, İsa Hüseynov, Hüseyn Arif, Nəriman Həsənzadə və başqaları haqqındakı səhifələrdə müəllif qəliz elmi terminlərdən istifadə etmədən, darıxdırıcılıqdan və yorucuIuqdan qaçaraq sadə , oxunaqlı dillə, bəzən də təhkiyəsinə yumor qataraq onların həm yüksək insani keyfiyyətləri, həm də məşğul olduqları sahələrdəki xidmətləri və mövqeləri barədə maraqlı məlumatlar çatdırır. Həyatda məhz belə şəxsiyyətlərlə qarşılaşmasını özü üçün səadət hesab edir. Bir dilçi alim kimi elm aləmində yüksək mövqe qazanmasında da vaxtı ilə ona dərs demiş müəllimlərinin böyük rolu olduğunu göstərir: "Mən xoşbəxtəm ki, həm orta məktəbdə, həm də xüsusilə Universitetdə çox böyük dilçi müəllimlərdən dərs almışam; onların yalnız məşhur ( və mənim üçün doğma!) adlarını çəkmək kifayətdir ki, şair demişkən, "qəziyyə məlum" olsun: Muxtar Hüseynzadə, Əlövsət Abdullayev, Nəsir Məmmədov, Ağamusa Axundov, Yusif Seyidov, Fərhad Zeynalov, Tofiq Hacıyev, Abdulla Vəliyev, Musa Adilov, Samət Əlizadə, Zinyət Əlizadə, Aydın Məmmədov, Kamil Vəliyev, Firudin Cəlilov...

Və bir də ona görə xoşbəxtəm ki, bu böyük dilçi alimlər nə yazdılarsa, demək olar, hamısını oxudum; nə dedilərsə, hamısını anlamağa çalışdım. Həm Universitütdə təhsil aldığım illərdə, həm də sonralar onların hər birindən qayğı, kömək, hörmət (və müdafiə) gördüm..."

Bu ömür kitabının fəsilləri bir-birini əvəz etdikcə sadə bir ailənin övladı olan qəhrəmanın öz ağlı və dərrakəsi, istedad və qabiliyyəti, başlıcası isə zəhmətkeşliyi və əzmkarlığı hesabına necə ucalmasının şahidi oluruq.

N.Cəfərov əsərdə keşməkeşli, eniş-yoxuşlu həyat yollarında qarşısına çıxan xeyirxah insanları tez-tez xatırlayır, qədirbilənliklə onların bu böyüklüyü, təmənnasız yaxşılıqları qarşısında borclu olduğunu etiraf edir: "Tərcümeyi-halımı varaqladıqca görürəm ki, çox adama borcluyam".

Təbii ki, bu böyük şəxsiyyətlərin "borcunu" qaytarmağın bir yolu vardı, müəllif onun da öhdəsindən ləyaqətlə gəlməyi bacarmışdır. Doğrudan da, "Bu gün Azərbaycan filoloji mədəniyyətində elə şəxslər var ki, onların yaradıcılığı və fəaliyyəti "ümummədəni" konteksti müəyyənləşdirir. Onlardan biri də böyük alimimiz Nizami Cəfərovdur". (Rüstəm Kamal) Elə buradaca qeyd etmək yerinə düşər ki, Nizami Cəfərov təkcə böyük alim olmaqla kifayətlənmədi, öz ustadları kimi həmişə haqqın yanında oldu, azacıq istedadı olan kəslərə yol göstərdi, arxasızlara dayaq durdu.

Xatirələrin ən maraqlı yeri müəllifin ulu öndər Heydər Əliyevlə görüşünün təsvir olunduğu hissədir. Bu dahi şəxsiyyət böyük etimad göstərərək Nizami Cəfərovu Azərbaycan Atatürk Mərkəzinə rəhbər təyin edir. Bundan sonra müəllif ona tapşırılan şərəfli və məsuliyyətli işin öhdəsindən bacarıqla gəlmək üçün var qüvvəsi ilə çalışdığını yazır: "Çox keçmədi ki, Mərkəz fəaliyyətə başladı. Və Azərbaycan xalqının ümummilli liderinin bütün göstərişlərini həyata keçirməyə çalışdıq...

Türkiyənin dövlət xadimləri ilə görüşlərin birində Heydər Əliyev Mərkəzinin başqanı barəsində işlətdiyi - "çox böyük bir professor" ifadəsi mənim üçün indiyə qədər aldığım (və bundan sonra alacağım) adların ən böyüyü oldu..."

**Əsərin əsas məziyyətləri haqqında bu qısaca qeydlər göstərir ki, Nizami Cəfərovun "Keçən günlərin "tərcümeyi-hal"ı" əsəri özünəməxsus janr və dil-üslub xüsusiyyətlərinə, məzmununa görə memuar ədəbiyyatımızın son illərdə yaranmış ən gözəl nümunələrindən biri hesab edilə bilər.**

***Mayis Səlim***





AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ